

***Ramiz İsmayıl***
***Xırdalan.ş***

# *Olmaz*

**Dərdliyə dağ boyda şələdi dünya,**
**Qarmaqdı, cələdi, tələdi dünya,**
**Adəmdən Xatəmə belədi dünya**
**Nə iman, nə insaf, nə mürvət olmaz.**

**Bir qızıl halqalı tordu deyirlər,**
**Axirət günündə gordu deyirlər,**
**Kasıba kor baxar, kordu deyirlər.**
**Xoş sifət göstərməz, xoş ülfət olmaz.**

**Çox ərən yetişər, igid doğular,**
**Bulaqlar quruyar, dəhnə soğular,**
**Çox gələr dünyaya Mədətoğlular**
**Hər Mədətoğludan Əbülfət olmaz.**

**Ramiz haqq arayar, haqqa yar olar,**
**Haqqı danan xəcil olar, xar olar,**
**Nanəcibdə sərvət, dövlət-var olar,**
**Ləyaqət, şərafət, mərifət olmaz.**